

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 106 (24.243)

*14 iyun 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Türkiyə-Azərbaycan birliyi, qardaşlığı beynəlxalq amildir, sabitlik, inkişaf və təhlükəsizlik amilidir

İyunun 12-də Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Azərbaycan Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və birinci xanım Əminə Ərdoğanın şərəfinə dövlət ziyafəti verilib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşıladılar.

Ziyafət konsert proqramı ilə davam edib.

Konsert proqramında ölkəmizin tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ifasında Azərbaycanın və Türkiyənin xalq mahnılarından və klassik musiqilərindən nümunələr səsləndirilib.

Azərbaycan Respublikası Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 13-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan nümayəndə heyəti Türkiyə Prezidentinə, Türkiyə nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

* * *

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.



* * *



İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü keçirilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı salamlayan Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Sizin dövlət səfəriniz bizi çox məmnun edir. Şadam ki, prezident seçkilərindən qısa müddət sonra Siz Azərbaycana səfər edirsiniz. Bir daha sizi qələbə münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar arzulayıram. Əminəm ki, növbəti illərdə də bizim dostluğumuz, qardaşlığımız hər zaman olduğu kimi yüksək səviyyədə olacaqdır.

Biz bu gün Sizinlə artıq təkbətək görüş əsnasında bir çox məsələləri müzakirə etdik. İndi heyətlər çərçivəsində də bunun davamı olacaq. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı – bu, beynəlxalq amildir, sabitlik, inkişaf və təhlükəsizlik amilidir. Prezident seçkilərində türk xalqının Sizə göstərdiyi inam bir daha Sizin uzun illər ərzində Türkiyə xalqına göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir. Siz bilirsiniz ki, Sizi Azərbaycanda çox sevirlər. Siz bizim əziz qonağımızsınız.

Mən yeni hökumət üzvlərini də ürəkdən təbrik etmək istəyirəm. Bir çoxlarını tanıyıram. Dünən artıq bizim nazirlər və digər yüksəksəviyyəli rəsmilər bir arada olmuşlar, bu gün də bu təmaslar davam edir. Hər zaman olduğu kimi, bizim görüşlərimiz həm görülən işlərə yekun vurur, eyni zamanda növbəti illərdə görüləcək işlərlə bağlı yol xəritəsi cızır. Əminəm ki, bu səfərdə də belə olacaq. Bir daha xoş gəlmisiniz.

***

Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** dedi:

– Hörmətli cənab Prezident, əziz Qardaşım. Hörmətli heyət üzvləri.

Sizləri öz adımdan, heyətim adından ən səmimi hisslərimlə salamlayıram. Millətimizin iradəsi ilə yenidən prezident seçildikdən sonra hər zamankı adətimiz üzrə əvvəlcə Şimali Kipri ziyarət etdik, sonra da dərhal Bakıya gələrək Sizinlə bir arada olduq. Göstərdiyiniz qonaqpərvərliyə görə şəxsən öz adımdan və heyətim adından səmimi təşəkkürlərimi xüsusilə ifadə edirəm.

Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir. Bunun son örnəyini Türkiyədə baş verən zəlzələ fəlakəti zamanı gördük. Azərbaycan hökuməti və xalqı dərdimizi öz dərdi kimi bölüşdü və dərhal zəlzələ bölgəsinə heyət göndərdilər. Ürəyi bizimlə döyünən hər bir Azərbaycan vətəndaşına yenə şəxsən öz adımdan və millətim adından minnətdaram.

Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəltdiyimiz əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq. Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. Hakan bəy, bu məsələdə də heç gecikdirmədən, İnşallah, Şuşadakı baş konsulluğumuz hər an açıla bilərsə, bu, təbii ki, yenə başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaqdır.

Maarif Vəqfimiz Azərbaycan qurumlarının dəstəyi ilə təhsil-tədris sahəsində fəaliyyətini davam etdirir. İnşallah, gələn il məktəbimizin yeni təhsil korpusunu istifadəyə verməyi planlaşdırırıq.

Əziz qardaşımla təkbətək görüşümüzdə, xüsusilə Xəzərdən keçən Orta Dəhliz və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu xəttini də bir an əvvəl müzakirə etməyimizdə fayda var.

* * *

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, əziz Qardaşım, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana, Vətəninizə xoş gəlmisiniz.

Sizi Cümhurbaşqanı seçkilərində qazandığınız qələbə münasibətilə bir daha təbrik etmək istəyirəm. Şadam ki, bu qələbədən iki həftə sonra Siz Azərbaycana dövlət səfərinə gəlmisiniz.

Seçkilərdə Sizin qələbəniz 20 ildən çox müddət ərzində apardığınız siyasətin Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür. Sizin liderliyinizlə qardaş Türkiyə böyük və şərəfli yol keçmişdir, dünya çapında böyük güc mərkəzinə çevrilmişdir. İstər xarici siyasət sahəsində, istər daxili siyasət sahəsində fəaliyyətiniz Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilir. Sizin qələbəniz Azərbaycan xalqını da çox mutlu etmişdir.

Əminəm ki, bu seçkilərdən sonra Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri qarşısında yeni imkanlar, yeni üfüqlər açılır. Bu gün biz Sizinlə həm görülmüş işlərə yekun vurduq, eyni zamanda növbəti illərdə görüləcək işlər haqqında geniş fikir mübadiləsi apardıq. Həm təkbətək görüş zamanı, həm də heyətlərin iştirakı ilə apardığımız danışıqlar bir daha bizim ortaq niyyətimizi ifadə edir. Yəni əldə edilmiş bütün uğurların təməlində Türkiyə və Azərbaycan arasında olan qardaşlıq əlaqələri dayanır.

İki gündən sonra biz Şuşa Bəyannaməsinin ikinci ildönümünü qeyd edəcəyik. Şuşa Bəyannaməsi tarixi anlaşmadır. Bu anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Əslində, faktiki olaraq, biz uzun illər müttəfiqlər kimi fəaliyyət göstərirdik, ancaq Şuşa Bəyannaməsi bunu rəsmi sənədə çevirdi. Bu sənədin Şuşada imzalanması təbii ki, rəmzi xarakter daşıyır. Çünki Şuşa Qarabağın tacıdır və Şuşanın işğaldan azad olunması İkinci Qarabağ müharibəsinə son nöqtəni qoymuşdur. Fürsətdən istifadə edərək Azərbaycan xalqı adından Sizə və qardaş Türkiyəyə İkinci Qarabağ savaşı dönəmində bizə göstərdiyiniz qardaşlıq dəstəyinə, mənəvi və siyasi dəstəyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Təbii ki, bizim gələcək işbirliyi proqramımız bu gün müzakirə olunan məsələlər arasındadır. Bütün sahələrdə konkret proqramlar əsasında işlər gedir. İlk növbədə, Türkiyə və Azərbaycan bundan sonra da xarici siyasət sahəsində vahid mövqedən çıxış edəcəklər. Bizim xarici siyasətlə əlaqədar apardığımız birgə fəaliyyət bölgə üçün də çox böyük önəm daşıyır. O cümlədən bölgənin inkişafı, sabitliyi və təhlükəsizliyi nöqteyinəzərindən Türkiyə-Azərbaycan birliyi amili çox önəmlidir.

Bu gün, eyni zamanda müdafiə və müdafiə sənayesi sahələrində gələcək planlar haqqında danışdıq. Məmnuniyyətlə qeyd olundu ki, bu il 16 birgə hərbi təlim keçiriləcəkdir, onlardan 6-sı artıq keçirilmişdir. Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz bunu indi əyani şəkildə görürük. Bu dəstəyə görə də Sizə özəlliklə təşəkkürümü bildirmək istəyirəm.

Bugünkü dünyada güc amili ön plana çıxır. Əfsuslar olsun ki, beynəlxalq hüquq

*Ardı 2-ci səhifədə*



çalışmır. Biz bunu 30 illik işğal dönəmində görmüşdük və aparılan müzakirələr, danışıqlar heç bir nəticəyə gətirib çıxarmadı, nəticəyə gətirib çıxaran bizim gücümüz oldu. Ona görə bundan sonra da birgə fəaliyyət istiqamətində aparılacaq işlər bizim gücümüzü həm bölgədə, həm dünyada daha da artıracaq.

Məmnunluq hissi ilə qeyd etdik ki, ticarət dövriyyəsi sürətlə artır və artıq 6 milyard dollara yaxınlaşıbdır və gələcəkdə daha da artacaq. Çünki birgə həyata keçirəcəyimiz layihələr bunu təmin edəcək, xüsusilə enerji sahəsində. Azərbaycandan Türkiyəyə təbii qazın ixracı artmaqdadır, ildən-ilə artır və bu gün biz razılığa gəldik ki, bundan sonra da artacaq. Bununla paralel olaraq Türkiyə ərazisindən Avropa ölkələrinə Azərbaycanın qaz ixracı artmaqdadır, buna da böyük tələbat var. Enerji sahəsində bizim işimiz təbii qaz məsələsi ilə məhdudlaşmır. Biz bu gün yenilənən, yəni bərpa olunan enerji növləri üzrə əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Biz bu gün həm qaz, həm neft, həm neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi sahələrində fəal əməkdaşlıq edirik.

Təbii ki, hər dəfə görüşəndə biz nəqliyyat məsələlərini də geniş müzakirə edirik. İndiki geosiyasi şəraitdə Orta Dəhlizin önəmi daha da artır. Azərbaycan ərazisindən, yəni Xəzər dənizi ilə daşınan yüklərin həcmi ildən-ilə artmaqdadır və daha da artacaq. Ona görə biz Azərbaycanda nəqliyyat və logistika imkanlarımızı genişləndiririk. Bakı Dəniz Limanının imkanlarını 25 milyon tona genişləndiririk. Dəmir yolu, gəmiqayırma zavodu və digər nəqliyyat infrastrukturu ən müasir səviyyəyə gətirilir.

Biz, eyni zamanda Zəngəzur dəhlizinin tezliklə açılması haqqında fikir mübadiləsi apardıq, bu məsələni müzakirə etdik. Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək.

Müzakirə olunan məsələlərdən biri də təhsil sahəsi ilə bağlıdır. Türkiyə-Azərbaycan birgə universitetinin yaradılması istiqamətində danışıqlar indi son mərhələdədir. Biz çox ümid edirik ki, yaxın aylarda bu məsələ də öz həllini tapacaq və bizim qardaşlıq münasibətlərimizə daha bir töhfə veriləcəkdir.

Bir sözlə, qeyd etdiyim bütün bu və digər məsələlərlə, – çünki gündəliyimiz kifayət qədər genişdir, – bağlı fikir birliyi, vəhdət, mövqe birliyi var, belə də olmalıdır. Türkiyə-Azərbaycan birliyi xalqlarımız üçün, bölgə üçün, Türk dünyası üçün önəmlidir. Əminəm ki, gələcək illərdə bu birlik daha da güclənəcək və bizi yeni uğurlar, yeni qələbələr gözləyir.

Əziz Qardaşım, gəldiyinizə görə bir daha təşəkkür edirəm. Vətəninizə xoş gəlmisiniz!

***

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Əvvəlcə hörmətli mətbuat nümayəndələrinə bir daha bildirirəm ki, Prezident üsul-idarəsinin ikinci dönəmində 86 faizlik iştirak səviyyəsi ilə keçirilən budəfəki seçki dünyada müstəsna deyə biləcəyimiz bir seçki olmuşdur. Bu seçkidən də millətimin iradəsi ilə qalib çıxmaq, yenidən ilk səfərimizi Şimali Kiprə və həmin gün Bakıya gələrək burada gerçəkləşdirmək bizi son dərəcə məmnun etmişdir. Biz öz evimizdəyik və indi burada mətbuata bəyanatla çıxış edirik.

İlham qardaşım nazirlərin bu gün qarşılıqlı keçirdiyi iclasları olduqca gözəl bir şəkildə ümumiləşdirdi. Bununla yanaşı, hansı sahələrdə nələr etdik, nələri edirik, təkbətək görüşdə də bunları ətraflı müzakirə etdik. Prezident Əliyev bunları da ümumiləşdirdi və heyətlər arasındakı görüş barədə də ətraflı məlumat verdi.

Türkiyə və Azərbaycan iki qardaş ölkədir. "Bir millət, iki dövlət" düşüncəsi ilə bu günə qədər addımladıq. İndiyə qədər addımladığımız bu yolda bundan sonra da qərarlı şəkildə yolumuza davam edəcəyik. Burada bir məsələni də bildirmək istəyirəm. Xüsusilə səlahiyyətlərimin icrasına başlama mərasimində İlham qardaşımın xanımı ilə birlikdə iştirakı dünyaya və Türkiyəyə bir mesajdır. Buna görə mən də eyni qaydada xanımımla birlikdə bu səfərə gəlmişəm. Bu səfərlər aramızdakı münasibətlərin nə qədər inkişaf etməsinin ən gözəl ifadəsidir. Bunları təkcə bu gün etdik? Xeyr. Biz bunları daim – Baş nazir olduğumdan bəri, Prezidentliyi təhvil aldığımdan bəri yaşadıq, yaşayırıq və Rəbbim ömür verdikcə də yaşamaqda davam edəcəyik.

Əziz qardaşım İlham Əliyevə və azərbaycanlı qardaşlarımıza göstərdikləri bu qonaqpərvərliyə görə də şəxsən öz adımdan və heyətim adından çox təşəkkür edirəm. Hazırda atdığımız və atacağımız addımlardan biri də Türkiyə-Azərbaycan Universiteti məsələsidir. Bu məsələ ilə əlaqədar Ali Təhsil İdarəsinin sədri öz həmkarı ilə bu məsələni bu gün nəzərdən keçiriblər. Qanuni prosedurun vacibliyini isə İlham qardaşım ifadə etdi. Bu məsələni də tez bir zamanda həyata keçirərək, İnşallah, Türkiyə ilə Azərbaycan arasında belə bir universitetin qurulmasına nail olacağıq. Beləliklə, azərbaycanlı gənclərimiz Türkiyəyə rahatlıqla gələ biləcəkləri kimi, türk gəncləri də eyni qaydada Azərbaycandakı universitetdə oxumaq şansı əldə edəcəklər.

Bununla yanaşı, ən vacib məsələlərdən biri də, məlum olduğu kimi, enerjidir. Enerji sahəsində istər TANAP, istərsə də TAP ilə bağlı illərdən bəri görülən işlər var. Bu işlərin təfərrüatlarını da nazirlərimiz öz aralarında müzakirə etdilər. Həmçinin bununla bağlı bundan sonrakı dövrdə görəcəyimiz işlər müzakirə olundu. Avropa enerji sahəsində, xüsusilə Türkiyə vasitəsilə alacağı qaz məsələsində çox narahatdır. Buna görə davamlı xahişlər edirlər. Bu məsələ ilə əlaqədar biz üzərimizə düşən işi görürük və bundan sonra da həyata keçirməkdə davam edəcəyik.

Bütün bunlarla yanaşı, müdafiə sənayesi sahəsində atılacaq addımlar da böyük əhəmiyyət kəsb edir. Bu sahədə atacağımız addımlarla birlikdə bu işin müdafiə sənayesi hissəsi ilə yanaşı, təhsil məsələsində də üzərimizə düşən vəzifələr var. Bu vəzifələri bu günə qədər necə yerinə yetirmişiksə, bundan sonra da eyni qaydada həyata keçirməkdə davam edəcəyik.

Ən mühüm məsələlərdən biri də xüsusilə hazırda özəl sektorumuzun burada atdığı addımlardır. Şirkətlərimiz kənd təsərrüfatı, heyvandarlıq sahələrində müştərək fəaliyyəti uğurla həyata keçirirlər. Bununla yanaşı, nəqliyyat sahəsində türk podratçı firmaları, həqiqətən də, Azərbaycanda uğurlu infrastruktur layihələrini həyata keçirirlər. Bu bizi xüsusilə məmnun edir.

Şuşa Bəyannaməsinin müddəalarını da, İnşallah, bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlıyıq və bu məsələdə güzəştə getməyəcəyik.

Üzərində ən çox çalışdığımız və həssaslıq göstərdiyimiz Zəngəzur dəhlizi məsələsini, İnşallah, sürətlə həll etməyimiz bizə iki mühüm imkanı qazandıracaq. İstər avtomobil yolu, istərsə dəmir yolu ilə bağlı atılacaq addımlar sayəsində buradan İğdıra, Naxçıvana yolun açılması ilə Türkiyənin Naxçıvanla əlaqəsi daha güclü olacaq. Bu əlaqələrin yaradılması Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da güclənməsinə imkan verəcək. Çünki yol mədəniyyətdir. Əgər yolunuz varsa, mədənisiniz. Yolunuz varsa, mədəniyyətə çatmısınız. Əgər yol yoxdursa, heç bir şey yoxdur. Hazırda Azərbaycanın, xüsusilə müharibələrdən sonra infrastrukturla bağlı böyük həssaslıq göstərdiyi ən əhəmiyyətli məsələ yollardır. Bundan əvvəlki səfərimdə də gördüm, bütün tunellər, viaduklar Azərbaycanın Qarabağ müharibələrindən – istər Birinci, istərsə İkinci Qarabağ müharibəsindən sonra necə inkişaf etdiyini ən gözəl şəkildə ortaya qoyur. Biz bunları bilavasitə gördükcə iftixar hissi keçiririk. İyirmi il əvvəlki Bakını düşünürəm və hazırda da Qarabağı düşünürəm. Otuz il ərzində Minsk qrupu vaxt uzatdı və bunun nəticəsini yaşayırıq. Vaxtı çox uzatdılar, addım atmağa imkan vermədilər. Bax öz gəbəyinizi özünüz kəssəniz, addım atarsınız. Sağ olsun, İlham qardaşım bunu bacardı. Millət olaraq bunu bacardınız və indi də bu səviyyəyə gəldiniz. Deməli, məsələ odur ki, qətiyyətli olduğun zaman, inandığın zaman istədiyinə nail olmaq mümkündür. Azərbaycan da bu nəticəyə nail oldu.

Əlbəttə, indi qarşımızda atılacaq bəzi addımlar var. İnşallah, bu addımları da uğurla atdıqca Azərbaycan mövcud əhalisi ilə, təbii ki, daha da irəli gedəcək. Mənim əhali ilə bağlı planımı, proqramımı bilirsiniz, ən azı üç deyirdim. Amma Azərbaycanda bu, ən azı beş olmalıdır. Elədirmi, qardaşım?

**Prezident İlham Əliyev:** – Çalışacağıq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** – Ən azı beş olmalıdır. Hazırda əhali 12 milyondur?

**Prezident İlham Əliyev:** – Hələ 11 milyona çatmayıb, 10 milyonun üstündədir, amma, İnşallah, yaxın zamanda çatacaq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** – Çatacaq, İnşallah. Yəni bunu bacarmaq lazımdır. Buna nail olanda Azərbaycan daha güclü olacaq. Çünki əhali hər bir ölkənin gücüdür, həmin ölkənin gələcəklə bağlı paradiqmalarını dəyişdirir. Bu inamla, Türkiyə-Azərbaycan qardaşlığı və "Bir millət, iki dövlət" anlayışı ilə gələcəyə doğru addımlayacağıq. Aramızdakı Preferensial Ticarət Sazişindən tutmuş digər sahələrdə atacağımız addımlarla, İnşallah, Türkiyə-Azərbaycan qardaşlığını daha yüksək səviyyəyə çatdıracağıq. Çox təşəkkür edirəm.

* * *

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan ilə birgə işçi nahar ediblər.

* * *



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirak ediblər.

***

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına dövlət səfəri iyunun 13-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğanı dövlətimizin başçısı İlham Əliyev yola saldı.

**AZƏRTAC**

## Səlahiyyətli nümayəndə muxtar respublika gəncləri ilə görüşüb

İyunun 13-də Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli muxtar respublikanın bir qrup fəal gənci ilə görüşüb.

Səlahiyyətli nümayəndə çıxış edərək deyib ki, 2022-ci ilin dekabr ayından Azərbaycan Respublikası Prezidentinin müvafiq qərarlarından sonra Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəlik institutu formalaşıb. Bu, Naxçıvanın, ümumiyyətlə, Azərbaycan Respublikasının həyatında yenilikdir. Yeni institutlar xalqa daha yaxın olmaq, xalqın firavanlığının təminatı kimi ali məqsədlərə xidmət edir. Hər bir görüş bizim üçün bir platformadır.

Fuad Nəcəfli Azərbaycan Respublikasında aparılan sosial-iqtisadi islahatlarla bağlı gənclərə məlumat verərək bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin həyat fəlsəfəsi, Onun fəaliyyəti Azərbaycan xalqının milli sərvətidir. Bu gün dahi şəxsiyyətin siyasi xətti yaşayır. Bu siyasi xətt möhkəm təməllər üzərində formalaşdırılıb. Baxın bizim ətrafımızda nələr baş verir. Uzun müddət münaqişə şəraitində olan qonşu dövlət bu gün də öz müstəqil siyasətini heç bir şəkildə formalaşdıra, öz iqtisadi fəaliyyətini, müstəqilliyini heç bir şəkildə qura bilmir. Lakin Ulu Öndərin siyasi xəttinin nəticəsi olaraq müstəqil Azərbaycan qüdrətli dövlətə çevrilib.

Səlahiyyətli nümayəndə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsindən və qazanılmış Tarixi Qələbədən bəhs edib. Qeyd olunub ki, bu Qələbədən sonra Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası üçün böyük perspektivlər açılıb. Azərbaycan 30 ilə yaxın apardığı uğurlu xarici siyasətin bəhrələrini görür. Bu gün əsas məsələ kommunikasiyaların, nəqliyyat dəhlizlərinin açılması, xalqın daha da firavan yaşamasıdır.

*Ardı 3-cü səhifədə*





Müstəqilliyimizin ilk illərində “Əsrin müqaviləsi” imzalananda Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi ilə bağlı məsələlər müzakirə olunarkən həmişə bu mövqedən çıxış edilib ki, Azərbaycan əməkdaşlıqlar üçün platformalar yaradır. Təkcə Azərbaycan xalqı deyil, eyni zamanda bütün maraqlı və pozitiv düşüncələri olan dövlətlər bu beynəlxalq platformadan istifadə etsinlər və biz ümumiyyətlə, regionda əməkdaşlıq perspektivlərini inkişaf etdirək. Bunu da uğurla aparırıq. Bu gün Heydər Əliyev Fondunun apardığı siyasət var. Ölkəmizdə və ondan kənarda ümumbəşəri abidələrin qorunması ilə bağlı işlər aparılır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bu məsələlər tam sürətlə gedir. Azərbaycan, ümumilikdə, özünü bütün dünyəvi dəyərlərin mirasçısı kimi göstərir. Cəmiyyətimizdə hər bir prinsipial mövqeyi olan gənc, fərd bu məsələni diqqətdə saxlamalı, gələcək nəsillərə ötürməlidir.



Səlahiyyətli nümayəndə muxtar respublikada bu müddət ərzində nümayəndəlik institutu tərəfindən görülən işlər və qarşıda duran hədəflərdən geniş danışıb, ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın əhəmiyyətini vurğulayıb, Dövlət Proqramının qəbul olunmasına görə gəncləri təbrik edib. Bildirib ki, muxtar respublikanın inkişaf etdirilməsində gənclərin potensialından istifadə edilməlidir. Buna görə də gənclərlə iş yenidən qurulur.

Sonra gənclər müxtəlif mövzular – “Gənclərin asudə vaxtının səmərəli təşkili”, “Məktəblərdə hərbi-vətənpərvərlik tərbiyəsinin təşkili”, “Yay düşərgələrinin təşkili”, “Gənc mütəxəssislərin xarici ölkələrdə təlimlərə göndərilməsi”, “Gənclərin işğaldan azad edilmiş ərazilərə səfərinin təşkili”, “Xaricdə təhsil imkanları”, “Ölkə və beynəlxalq yarışlarda iştirak etməsi üçün idmançılara maddi dəstək göstərilməsi”, “Rəqəmsallaşma”, “Ölkə üzrə keçirilən qrant müsabiqələrində muxtar respublikada fəaliyyət göstərən gənclər təşkilatlarının layihələrinin dəyərləndirilməsi”, “Tələbələrin düzgün karyera qurmasına kömək göstərilməsi” və onları düşündürən digər məsələlər ətrafında çıxış edib, sual və təkliflərini çatdırıblar.

Səlahiyyətli nümayəndə sualları ətraflı cavablandırıb.

Gənclərlə görüşün keçirilməsinə şərait yaradıldığına görə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev minnətdarlıq edib.

Sonda görüş iştirakçıları ilə xatirə şəkli çəkdirilib.

**“Şərq qapısı”**

## Ukrayna Respublikasında yerləşən Akademik Zərifə Əliyeva adına İrpen Humanitar Xarici Dillər Liseyinin direktoru Valentina Antonenko Naxçıvan Muxtar Respublikasında səfərdə olub





İyunun 12-də akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə muxtar respublikaya səfər edən qonaq əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, ehtiramını bildirib. Heydər Əliyev Muzeyi ilə tanışlıqdan məmnunluq duyan qonaq muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən görüşdə Ali Məclis sədrinin müavini Anar İbrahimov qonağı salamlayıb, Ukrayna-Azərbaycan dostluq münasibətlərindən bəhs edib. Bildirib ki, İrpendə fəaliyyət göstərən Akademik Zərifə Əliyeva adına İrpen Humanitar Xarici Dillər Liseyi ölkələrimiz və xalqlarımız arasındakı dostluğun bariz nümunəsidir.




Qeyd edib ki, Zərifə xanım Əliyeva, onun atası, görkəmli alim, siyasi xadim Əziz Əliyev nəinki Azərbaycanda, hətta ondan kənarda da göstərdiyi fəaliyyətlərə görə tarixdə iz buraxıblar. Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanımın da xatirəsi bütün Azərbaycan xalqı, eləcə də naxçıvanlılar üçün əzizdir. Ona görə biz məmnunuq ki, hərbi əməliyyat zamanı zərərçəkmiş Zərifə xanım Əliyevanın adını daşıyan təhsil müəssisəsi ölkə Prezidentinin tapşırığı ilə SOCAR Enerjy Ukrain tərəfindən qısa zamanda bərpa olunub.

Təhsil naziri Rəhman Məmmədov Zərifə xanım Əliyevanın adını daşıyan İrpen Humanitar Xarici Dillər Liseyi ilə Şahtaxtı kənd tam orta məktəbinin əlaqələrindən danışıb, bu əlaqələrin gələcəkdə də davam etdiriləcəyini bildirib. Valentina Antonenko Azərbaycanın Ukraynaya humanitar yardımlarını xatırladaraq buna görə Azərbaycan rəhbərliyinə, xalqına minnətdarlığını bildirib. O həm də Naxçıvanda olduğu zaman məktəb infrastrukturunun yüksək səviyyəliliyindən, buradakı şəraitdən təsirləndiyini qeyd edib, gələcəkdə də İrpenin Zərifə Əliyeva adına məktəbi ilə Naxçıvanın sıx əlaqələrini davam etdirəcəyinə ümidvar olduğunu deyib.

Valentina Antonenko Kəngərli rayonunun Şahtaxtı kəndində yerləşən Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində də olub. Alimin həyat və fəaliyyətini əks etdirən muzeylə tanışlıqdan sonra məktəbin müəllim kollektivi ilə görüşüb. Görüş zamanı Ukraynada ağır şəraitdə dərs keçdiklərini bildirən qonaq qeyd edib ki, 15 ildir, rəhbərlik etdiyi lisey akademik Zərifə Əliyevanın adını daşıyır. Liseydə alimin büstü qoyulub, həyat və fəaliyyətindən bəhs edən muzey yaradılıb. Hazırda liseyin yerləşdiyi küçə də akademik Zərifə xanımın adını daşıyır. Vurğulayıb ki, məktəbdə 2500 şagird təhsil alır. Hazırda onların yarısı onlayn dərs keçirlər. Ağır şəraitə baxmayaraq, bu məktəbə gəlməyi özünə borc bilib. Bildirib ki, Akademik Zərifə Əliyeva adına İrpen Humanitar Xarici Dillər Liseyində yeni tədris ilindən Azərbaycan dilində də dərs keçiləcək.

Sonra qonaq Heydər Əliyev adına tam orta məktəbdə olub. Məktəbdəki STEAM tədris mərkəzi ilə tanışlıq zamanı bildirilib ki, məktəbdə 1200-dən artıq şagird təhsil alır. Təhsil ocağı hər il ali məktəblərə qəbulda yüksək nəticələr göstərir. Vurğulanıb ki, muxtar respublikadakı 212 məktəbin 156-da STEAM kabinələri qurulub. Qonaq laboratoriyalarda yaradılmış şəraitlə də yaxından maraqlanıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***




## Naxçıvanda “Azərbaycanda Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE2)” layihəsi çərçivəsində təlimlərə start verilib

İyunun 12-də Naxçıvanda səfərdə olan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, əziz xatirəsini dərin ehtiramla yad edib, abidə önünə gül dəstəsi qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib. Həmin gün Səbinə Əliyeva Naxçıvan Muxtar Respublikasının Ombudsman Aparatında olub, Aparat tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində həyata keçirilən fəaliyyətlə tanışlıqdan sonra müvafiq sahələr üzrə tövsiyələr verib.

İyunun 13-də “Naxçıvan Palace” xidmət kompleksində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) Azərbaycan Respublikasındakı nümayəndəliyinin təşkilatçılığı ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE2)” layihəsi çərçivəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və 18 iyun – İnsan Hüquqları Gününə həsr olunmuş “Həssas miqrantların hüquqlarının təmin edilməsi. Miqrasiya və sığınacaq idarəçiliyi. Monitorinq mexanizmləri” mövzusunda tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva çıxış edərək müstəqil Azərbaycanın qurucusu, görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin məhkəmə-hüquq sisteminin inkişafı, o cümlədən insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə xidmət edən mütərəqqi islahatların həyata keçirilməsi sahəsində rolundan danışıb, insan hüquqları

*Ardı 4-cü səhifədə*

amilini öz əməli fəaliyyətində daim əsas meyar kimi rəhbər tutan Ümummilli Liderin bu sahədə qəbul etdiyi fərman və sərəncamlar haqqında məlumat verib. Qeyd edilib ki, Ulu Öndərin təşəbbüsü ilə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" 2001-ci il 28 dekabr tarixli Konstitusiya Qanunu qəbul olunub. Ulu Öndər tərəfindən 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilib və Prezident cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən sözügedən Dövlət Proqramının təsdiq olunduğu 18 iyun tarixi "Azərbaycan Respublikasında İnsan Hüquqları Günü" kimi təsis edilib. Həmin əlamətdar gün ölkəmizdə geniş qeyd olunur və bununla əlaqədar Azərbaycan Ombudsmanı tərəfindən ənənəvi olaraq hər il may ayının 18-dən iyunun 18-nə kimi ölkədə "İnsan hüquqları aylığı" elan edilir.

Qeyd olunub ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş insan hüquqları sahəsində hüquqi islahatlar hazırda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəal dəstəyi ilə uğurla davam etdirilir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən əzəli torpaqlarımızın 44 günlük Vətən müharibəsi ilə işğaldan azad olunması regionda ədalətli sülhün təmin edilməsinə, keçmiş məcburi köçkün soydaşlarımızın tarixi yurdlarına qayıdışına zəmin yaratmaqla yanaşı, bütün sahələr kimi, miqrasiya və yerdəyişmə üzrə də zəruri imkanların əldə edilməsinə geniş yol açıb. Nəticə etibarilə, gələcəkdə həmin ərazilərdə də yerdəyişmə üzrə müxtəlif layihələrin həyata keçirilməsi və beynəlxalq əməkdaşlığın yeni müstəvidə inkişafı istiqamətində möhkəm bünövrə yaranıb.





Vurğulanıb ki, Ombudsman Aparatının Dövlət Miqrasiya Xidməti ilə birgə həyata keçirdiyi işlər davamlı xarakter daşıyır. Xidmətin əməkdaşlarının insan hüquqları sahəsində peşə, tədqiqat və təhlil bacarıqlarının artırılması məqsədilə müntəzəm qaydada birgə tədbirlər, canlı və videokonfranslar formatında görüşlər təşkil edilir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ombudsmanı miqrantların hüquqlarının effektiv qorunması üçün ikitərəfli və çoxtərəfli əsaslarla mümkün beynəlxalq alətlərdən səmərəli şəkildə istifadə edərək beynəlxalq öhdəliklərə uyğun bir sıra proqram və layihələrdə iştirak edir. Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz Azərbaycan Ombudsmanının sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biridir. Hazırda ölkəmizdə icrası davam etdirilən "Azərbaycanda Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE 2)" layihəsi də öz uğurlu nəticələrini verməkdədir. Birgə əməkdaşlıqda həyata keçiriləcək bu layihələr, öz növbəsində, miqrasiya idarəçiliyinin təkmilləşdirilməsinə də öz müsbət təsirini göstərəcəkdir.

Səbinə Əliyeva mövcud əməkdaşlıq əlaqələrinin daha da təkmilləşdirilməsi baxımından təşkil edilən tədbirin faydalı olacağını diqqətə çatdırıb, ikigünlük təlimin işinə uğurlar arzulayıb.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin nümayəndəsi Anar Xudiyev, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Səltənət Məmmədova, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva çıxış ediblər. Çıxışlarda miqrantların hüquqlarının təmini, onların cəmiyyətə davamlı inteqrasiyası, qanuni miqrasiyanın təşviqi sahəsində atılan əhəmiyyətli addımlardan, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin fəaliyyətindən, "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE2)" layihəsinin Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsində oynadığı mühüm roldan danışılıb, muxtar respublikada insan hüquqlarının etibarlı müdafiəsi, miqrantların hüquq və azadlıqlarının qorunması və təminatı sahəsində görülən tədbirlər diqqətə çatdırılıb.

Sonra təlimlərə start verilib. Azərbaycanın və Yunanıstanın Ombudsman Təsisatlarının əməkdaşları Turan Cahangirova, Aynur Həmidova, Yiannis Boutselis müxtəlif mövzularda məruzələrlə çıxış ediblər. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, bu gün tədbirin bağlanış mərasimi keçiriləcək və iştirakçılara sertifikatlar təqdim olunacaq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Müstəqil həyata çağırışın sədası son zəng xoşbəxt gələcəyə səsləyən bir yolun başlanğıcı olsun!

*Bu gün çalınan zəng onları dərsə deyil, yeni həyata, enişli-yoxuşlu bir yola səsləyəcək. Bir vaxtlar sevərək, qaçaraq getdikləri məktəbə bu gün əlvida deyəcəklər. Bu günün şagirdləri sabahın tələbələri olmaq üçün yola çıxacaqlar. Dərsə hazır gəlmədikdə qorxu-həyəcan, dərsə hazır ikən isə böyük həvəslə əl qaldırıb lövhə önündə dərs danışmaq istəyi, sevimli müəllimləri ilə, əziz sinif yoldaşları ilə saysız-hesabsız acılı-şirinli o anlar xoş xatirələrlə xatırlanacaq. Onbirincilər üçün elə bu gün son zəng çalınacaq.*



Bu gündən sabaha səbirsizlik yaradan "Son zəng"in cingiltili sədaları hər bir şagirdin, xüsusən məktəblə vidalaşanların qəlbini səmimi bir qəhərə bürüyəcək. Heç zaman bitməyəcəyi təsəvvür edilən dərslər, tez başa çatan tənəffüslər, mehriban müəllimlər... Acılı-şirinli 11 illik məktəb həyatının son günü öz doğma məktəblərində sonuncu dəfə məktəbli formasında şagird olaraq son günlərini yaşayacaqlar onbirincilər... Məktəb yoldaşlarını, müəllimlərini ilk dəfə görürmüş kimi sevincli, son dəfə görürmüş kimi kədərlənəcəklər... Çünki az sonra 11 illik zaman kəsiyində təhsil aldıqları, özlərinə ikinci doğma ev bildikləri məktəblərindən, ailə bildikləri müəllimlərindən, uzun illər çiyin-çiyinə təhsil aldıqları yoldaşlarından ayrılacaqlar. Kim bilir, tale onları zamanın hansı sınaqlarına çəkəcək?.. "Əlvida məktəb, əlvida uşaqlıq! Xoş gördük gənclik, xoş gördük sabahımız!" deyərək həyatın keşməkeşli yollarına atılanlar sırasına öz adlarını yazacaqlar. Bu tarix onu yaşayan onbirincilərin ürəyində hələ uzun müddət duyğu dolu izlər qoysa da, onlar üçün müstəqil həyata ilk çağırış sədası, xoşbəxt gələcəyə, xəyallarda yaşatdıqları arzulara doğru uzanan keşməkeşli və məsuliyyətli bir yolun başlanğıcı olacaq...

Xoşbəxt gələcəyə gedən yolun başlanğıcında isə dövlətimizin diqqəti, dəstəyi bu gənclərin əlindən tutacaq, qayğı bu gənclərin hər addımında onların həyat yollarına işıq tutan çıraq olacaq.

Hər il ölkəmizin, eləcə də muxtar respublikamızın bütün ümumtəhsil məktəblərində orta məktəbi bitirən şagirdlərin "Son zəng" mərasimi yüksək təntənə ilə qeyd olunur. Orta təhsili başa vurub, sərbəst həyata atılan gənclərimiz hər il bu günü böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Bu il muxtar respublikamızın ümumtəhsil məktəblərini 3164 məzun bitirir.

Ölkəmizin gələcəyinin məsuliyyətini çiyinlərində daşımağa hər zaman hazır olan Azərbaycan gəncliyi təhsildə qazandığı nailiyyətləri gələcək fəaliyyətlərində də böyük uğura çevirir. Danılmaz faktdır ki, bu gün gənclərimizin təhsildə qazandığı uğurlar dövlətimizin onlar üçün yaratdığı imkanlar hesabınadır. Ən ucqar kəndlərdə belə bir-birindən yaraşıqlı, hər cür şəraitlə təmin olunmuş məktəb binalarının, kitabxanaların istifadəyə verilməsi şagirdlərin intellektual səviyyəli gənclər kimi yetişməsi məqsədi daşıyır. İlbəil təhsil sahəsinə artan dövlət qayğısı, bu sahədə atılan yenilikçi addımlar, qabaqcıl dünya təcrübəsindən bəhrələnməklə çağdaş təlim metodlarının tətbiqi onları təhsildə uğur qazanmağa sövq edir. Dövlətimizin diqqətini, qayğısını təkcə məktəblilər deyil, müstəqil həyata addım atan hər bir Azərbaycan gənci daim öz üzərində hiss edir və onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışır. Bu yüksək qayğıya cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün gücləri səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi Prezident cənab İlham Əliyevin siyasətini daim dəstəkləyirlər. Çünki onlar dərindən dərk edirlər ki, müstəqil Azərbaycanımızın xoşbəxt gələcəyi gənclərimizdən asılıdır. Onlar böyük Azərbaycanın gələcək qurucularıdır. Bu gün müstəqil həyata qədəm qoyan hər bir gəncə dövlətimizi qorumağı, dövlətçiliyimizə sadiq olmağı, öz fəaliyyətləri ilə daim uğur əldə etmələrini diləyir, həyatın enişli-yoxuşlu və tikanlı yollarını deyil, min bir xəyal və ümidlə dolu xoşbəxt gələcəyə addımlamağı arzulayırıq.

✍ **Gülcamal TAHİROVA**

## Ulu Öndərə həsr olunmuş "Xilaskar" tamaşası təqdim edilib



*Naxçıvan Dövlət Milli Dram Teatrı Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən "Xilaskar" tamaşasını teatrsevərlərə təqdim edib.*

Milli Qurtuluş Günü ərəfəsində təqdim olunan tamaşa yazıçı-dramaturq Aqşin Babayevin "Xilaskar" əsəri əsasında səhnələşdirilib. Xalq artisti Kamran Quliyevin quruluş verdiyi səhnə əsərinin quruluşçu rəssamı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, ikinci rejissoru Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur.

Tamaşa ölkə başçısı cənab İlham Əliyevin Vətən müharibəsi zamanı Qarabağın işğaldan azad olunması, həm də ata vəsiyyəti olduğunu bildirən tarixi çıxışı ilə sona çatır.

Tamaşa alqışlarla müşayiət olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Boksçularımız Gürcüstandan medallarla qayıdır



Kutaisi şəhərində yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib. Azərbaycan, Gürcüstan, Özbəkistan, İsrail və Latviya milli komandalarının qatıldığı yarışda idmançılarımız uğurla çıxış edərək, ümumilikdə, 13 medal qazanıblar. Belə ki, baş məşqçi Vaqif Kazımovla məşqçi Teymur Məmmədovun rəhbərlik etdiyi komandada təmsilçilərimizdən 3-ü qızıl, 2-si gümüş və 8-i bürünc medal əldə edib. Naxçıvan Boks Federasiyasının idmançılarından Elbrus Kərimli millimizi 54 kiloqram, Ucal Musayev isə 46 kiloqram çəki dərəcəsində təmsil edib. Hər iki boksçu yarışı bürünc medalla tamamlayıb.

## Əmrah Nağıyev şəxsi nəticəsini yeniləyib



Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda Əməkdar məşqçi Əfqan Səfərovun xatirəsinə həsr olunmuş atletika üzrə 26-cı beynəlxalq turnir keçirilib. Yarışa Azərbaycan, Türkiyə, Gürcüstan, Qırğızıstan və Omandan olan atletlər qatılıb. Turnir çərçivəsində qaçış yarışlarında iştirak edən Naxçıvan Atletika Federasiyasının idmançısı Əmrah Nağıyev 2 medal qazanmağa müvəffəq olub. Atletimiz 1500 metr məsafəyə qaçış növündə 4 dəqiqə 28.50 saniyə, 3000 metr məsafədə isə 9 dəqiqə 43.97 saniyə vaxt sərf etməklə rəqiblərini geridə qoyub. Bununla da təmsilçimiz hər iki məsafədə qızıl medal qazanıb və ötənilki nəticəsini (1 qızıl, 1 gümüş) yaxşılaşdırıb.

Qeyd edək ki, turnir Dünya Atletikasının Qlobal Təqviminə daxil edilib və bu yarışın nəticələri idmançıların dünya reytinq cədvəlində xal qazanması, qlobal miqyaslı tədbirlərə lisenziya qazanmaq imkanı baxımından yüksək dəyərləndirilir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Heyvandarlıqda mövcud vəziyyətin araşdırılması istiqamətində işlər aparılır



Muxtar respublikada epizootik vəziyyətin araşdırılması istiqamətində işlər davam etdirilir. Belə ki, bu günədək epizootik monitorinqlərə cəlb olunmuş mütəxəssislər tərəfindən mövcud vəziyyətin öyrənilməsi istiqamətində 82 kənddə monitorinqlər aparılıb. Monitorinqlər zamanı mütəxəssislər tərəfindən təsərrüfatlarda olan mal-qaranın, ev quşlarının və arı ailələrinin sayı müəyyənləşdirilir, o cümlədən sahibsiz itlərdə quduzluğa qarşı mübarizə tədbirlərinin aparılma vəziyyəti öyrənilir.

Həmçinin yun qırxımının mütəşəkkil həyata keçirilməsi, mal-qaranın yaylaqlara aparılması zamanı görüləcək tədbirlər və arı ailələrinin köçürülməsinin məhsuldarlığa təsiri barədə təsərrüfat sahibləri ilə maarifləndirici söhbətlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***


### Elan

Naxçıvan Alüminium Qablar Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə çatdırılır ki, Naxçıvan şəhəri, keçmiş evtikmə kombinatının binasında 29 iyul 2023-cü il tarixdə saat 11⁰⁰-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Cəmiyyətin ümumi yığıncağının reqlamentinin təsdiqi*

*2. İdarə heyəti sədrinin hesabatı*

*3. Səhmdar cəmiyyətinin ləğv olunması haqqında qərarın qəbul edilməsi.*

***İdarə heyəti***

### İtmişdir

Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini Mahmudova Lətifə Həsən qızının adına olan JN-545A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Maxta kənd sakini İmranova Nəzakət Məmməd qızının adına verilmiş JN-583A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 382